**Sizə iki mətn təklif edirik: I mətn şəxsidir, II isə təhsillə əlaqəlidir.**

**Aşağıda verilmiş mətnlərlə tanış olun və suallara cavab verin.**

**I Mətn**

*Turizm təşkilatlarından birinin veb səhifəsində aşağıdakı məlumatlar verilmişdir: Kvemo Kartlidə, Birtvisi qalası və Kanyonda 1 günlük tur təklif edirik.*

**Birtvisi haqqında tarixi məlumat:**

Birtvisi qalası Gürcüstanın böyük tarixinin şahididir. Birtvisi qalasının adı tarixi mənbələrdə ilk dəfə XI əsrdə çəkilmişdir, ancaq o, çox daha əvvəl tikilmiş olmalıdır. Öz zamanında Birtvisi qalası alınmaz sayılırdı. Təbiət baxımından əlçatmaz yerdə yerləşir. Birtvisi adi qala deyil, qala barisi və qüllələrlə əhatə olunmuşdur. Burada yuxarı qalxan dağlarla həmsərhəd böyük ərazidə qayalı və iti uclu dağlar səpələnmişdir. Bütün çıxışlar süni şəkildə möhkəmləndirilib və divarla bağlanıb.

**Yürüyüşçünün hekayəsindən qeyd:**

"Payızın gəlişi ilə dostlarımla biz səyahətimizə Birtvisi qalası ilə başladıq. Saat 8-də Tiflisdən çıxdıq və saat 9 radələrində təyinat yerinə çatdıq. Landşaft qayalıq və əyri-üyrüdür, buna görə də maşını dağın ətəyində qoyduq və qalxmağa piyada davam etdik. Əsas təyinat yerinə yaxınlaşdıqca heyrətamiz mənzərələrə heyranlığımızı gizlətmək bir o qədər çətinləşdi. Qısa müddət ərzində biz hər iki tərəfdən nəhəng qayalarla əhatə olunmuş dar cığırla getdik və çoxlu qayalarla dolu möhtəşəm kanyona daxil olduq. Kiçik bir mağaraya çatdıq, əlavə yükümüzü oradaca qoyduq və Birtvisi qala-qülləsinə, "Şeupovariyə" baxmaq üçün yolumuza dərənin ən hündür qayasına tərəf davam etdik. Yeganə problem o idi ki, yağış yağdığı üçün ayağımız sürüşürdü və qayalara qalxmağımız çətinləşirdi. Yola gəlincə, Birtvisi qalasına yürüyüş çətin səfərlər siyahısında deyil, lakin alpinist ipinin köməyi ilə kifayət qədər sıldırım qayalara qalxmaq bizim üçün asan olmadı. Bu iplə çıxıb-düşmək də bizim üçün yeni bir meyvə idi. Adrenalin də, təbii ki, öz işini gördü və bizə yüksəklik qorxusu verdi. Hündürə qalxdıqca yuxarıda qarşılaşacağımıza qarşı istək və maraq bir o qədər artırdı. Bənzər yollarda gəzməkdə təcrübəsiz olmağımız faktı bizi çox da qorxutmadı və təxminən saat yarıma dağın zirvəsinə çatdıq. O, həddindən artıq geniş məkan və gözəllik şəkildə də əks olunmurdu, buna görə də bizə buludların yanında keçirdiyimiz saniyələrdən aldığımız həzz qaldı"

*Material https://georgiantravelguide.com veb səhifəsində dərc olunan məlumat əsasında hazırlanmışdır.*

1. Aşağıda yürüyüşçülər üçün məsləhətlər verilmişdir. Onlardan hansı Birtvisidə yürüyüş edənə **yararlı olmaz**?

ა) Mütləq qapalı, rahat və qalın,elastiki, altı relyefi yaxşı tutan ayaqqabı geyinin;
ბ) Kanyonda gəzərkən islana bilərsiniz, ona görə də yanınızda dəyişməyə paltar və ayaqqabı götürün;
გ) İlk baxışdan yürüyüş üçün asan görünən sıldırım qayaları təcrübəli bələdçi olmadan dırmaşmağa çalışmayın;
*დ) Birtvisi kanyonuna getmək üçün sizə mütləq yolsuzluq avtomobili lazım gələcək;

2. Birtvisi qalasını ,,Şeupovari" adlandırırlar, çünki:

ა) Qayalarla və itiuclu dağlarla əhatə olunub;
ბ) Ən möhkəm daşla tikilmişdir;
*გ) Uzun illər ərzində düşmən onu ələ keçirə bilmirdi;
დ) Səyyahların fikrincə, ona qalxmaq çox çətindir.

3. Birtvisiyə yürüyüşə getməyi kimə məsləhət görərdiniz?

*ა) Yabanı təbiət, macəralar və köhnəliklərlə tanış olmağa maraq göstərənlərə;

ბ) Yalnız yaxşı fiziki hazırlığa malik təcrübəli alpinistlərə;

გ) Tarixi abidələrə marağı olan, lakin ekstremi sevməyən şəxslərə

დ) Uzaq məsafələri piyada gəzə bilməyən, fotoqrafiya ilə məşğul olan səyahətçilərə.

4.“Birtvisi qalası Gürcüstanın böyük tarixinin şahididir” cümləsi aşağıdakılardan hansını **ifadə etmir**?

ა) Birtvisi qalası bir çox düşməni dəf edib;
ბ) Birtvisi qalasının başına çox işlər gəlib;
*გ) Birtvisi qalasının adı bir çox tarixi mənbələrdə çəkilir;
დ) Birtvisi qalası dəfələrlə yad tayfaların hücum obyekti olmuşdur.

5. Kanyon sözü deyilir:

ა) Əyilmiş qayaya
*ბ) Dərin və dar dərəyə
გ) Qayalıq içindəki mağaraya
დ) Əlçatmaz uçuruma

6. Mətndə verilən cümlə: „ Alpinist ipi ilə çıxıb-düşmək də bizim üçün yeni birmeyvə idi.“ Aşağıda sadalananlardan hansı bu cümlənin məzmununu ifadə edir?

ა) Alpinist ipi ilə çıxıb-düşmək bizim üçün xoşagəlməz yenilik idi;
ბ) Bu qayaya çıxıb-düşən zamana qədər əvvəl də alpinist ipindən tez-tez istifadə edirdik;
გ) Alpinist ipi qayaya çıxma və qayadan düşmə prosesini bizim üçün əhəmiyyətli dərəcədə asanlaşdırdı;
*დ) Bu qayaya çıxıb-düşən zamana qədər alpinist ipindən heç istifadə etməmişdik;

7. Aşağıda sadalanan müzakirələrdən hansı mətndən **irəli gəlmir**?

*ა) Birtvisi qalasının unikallığı möhkəm tikilmiş divarlardan irəli gəlir, bu da erkən hərbi memarlığın keyfiyyətindən xəbər verir;
ბ) Birtvisi qalasının ətraf-mühitinin göz qamaşdıran gözəlliyi yolun çətinliyini unutdurur və insana enerji verir;
გ) Birtvisi qalasının təbii landşaft memarlığı onu əhəmiyyətli hərbi uğurların simvoluna çevirirdi;
დ) İdman həvəsi konki sürmək olan səyahətçilər üçün Birtvisi qalasının marşrutu çətinlik yaratmamalıdır;

**II Mətn**

Fransız alimləri Sapen-Jalousie və Prevo Antarktidanın ən qəribə sakinləri - imperator pinqvinləri haqqında ən son məlumatları bizə təqdim edirlər. Bu quşları nəhəng bədənlərinə və böyük çəkilərinə görə İmperator Pinqvinləri adlandırdılar. Qoruyucu piy qatına baxmayaraq, imperator pinqvinləri tək-tək mövcud ola bilməzdilər. Məhz buna görə də onların arasında “ictimai” termotənzimləmə belə inkişaf etmişdir. Temperatur çox aşağı düşdükdə 200-300 pinqvin bir-birinə söykənərək həqiqi dairə - "tısbağa" əmələ gətirir. Bu dairə yavaş-yavaş, lakin davamlı olaraq mərkəzin ətrafında fırlanır. Yumurtadan bala çıxan zaman "tısbağa" 500-600 fərd əmələ gətirə bilər. Mərkəz ətrafında fırlanan zaman onlar yavaş-yavaş külək istiqamətində hərəkət edirlər. Burada qar fırtınası 36-48 saat davam edir. Prevonun müəyyən etdiyi kimi, belə qar-küləkdə “tısbağa” yerini 100-200 metr dəyişir. Fırtınadan sonra pinqvinlər dağılırlar. Belə "ictimai"

termotənzimləmə effektivdirmi? Fransız alimləri temperaturun ölçülməsi zamanı onun effektivliyinə əmin olublar. -19 ° C-də "tısbağanın" ortasındakı temperatur təxminən + 35 ° idi.

Sükut və rahatlıq pinqvin koloniyasına yaddır. Onlar müxtəlif cür səslər çıxarırlar. Bəzən onların səsi zurna kimi səslənir və o qədər güclü olur ki, kilometrlərdən eşidilir. Pinqvinlərin səs-küyündə narahatlıq, qəzəb və ya həzz ifadə edən qışqırıqları ayırd edə bilərik. Prevo koloniyadan bir neçə kilometr aralıda pinqvinin gözlərini kapişonla örtdü və yalnız eşitmə orqanlarını açıq qoydu. O, pinqvini buraxan kimi quş düz özününkülərə tərəf yola düşdü. Bunun əksini edəndə - eşitmə orqanlarını bağlayıb və gözlərini açıq qoyanda- çaşqın quş bir yerdə fırlanmağa başladı və öz koloniyasını tapa bilmədi.

Yayın sonunda (Antarktidada bu, təxminən martın ortalarındadır) üzən buzlaqlar ayrı-ayrı hissələrə parçalanır və buz parçalarının üzərində olan pinqvinlər öz koloniyalarından uzaqlaşırlar. Amma dəniz buzla örtüldüyü zaman hansısa gizli üsul vasitəsi ilə geri qayıdırlar. Yeni gələn pinqvin bir neçə metr koloniyaya yaxınlaşan kimi başını yerə əyir, mahnı oxumağa başlayır, yavaş-yavaş başını yuxarı qaldırır, diqqət yetirir və qısa fasilədən sonra pinqvinlərin yığınına qarışır. Pinqvinlər öz " həyat yoldaşlarını da" belə tapırlar.Prevo quşları halqalarla işarələdi və əmin oldu ki, səs siqnalları "həyat yoldaşlarına" bir-birlərini tapmağa kömək edir və onların "boşanması" nadirdir. Tipik olaraq, dişi pinqvin yumurtanın üstündə oturan erkəyə qayıdır - o, bütün koloniyada onu axtarır, tapır və yumurta üzərindəki yerini tutur. Bütün koloniya "tısbağa" kimi toplandıqda belə, həyat yoldaşları bir-birlərinə mümkün qədər yaxın olmağa çalışırlar, çox vaxt bir-birinə söykənirlər.

1. „Tısbağanın" mahiyyəti nədir?

ა) Pinqvinlərin çoxsaylı koloniyası onların qar-küləkdə hərəkət edə bilməsi üçün həqiqi dairə yaradır;
ბ) Pinqvinlər fırtına zamanı bir-birindən uzaqlaşmamaq üçün mərkəz ətrafında fırlanarkən külək istiqamətində hərəkət edirlər;
*გ) Pinqvinlər bir-birinə sıx söykənirlər və temperaturu müəyyən səviyyədə saxlamaq üçün fasiləsiz hərəkət edən dairə əmələ gətirirlər;
დ) Balanın yumurtadan çıxma prosesinə mane olmamaq üçün 500-600 pinqvindən ibarət dairə yavaş-yavaş fırlanır.

2. "Termotənzimləmə" sözünə "ictimai" sifəti əlavə olunur, çünki:
*ა) Pinqvinlərin koloniyası bir cəmiyyət kimi müəyyən qaydaya riayət edərək ümumi məqsədə çatmaq üçün birgə hərəkət edirlər;
ბ) Pinqvinlər tək-tək mövcud ola bilmirlər və koloniyada termotənzimləmə zamanı onların komandası həqiqi cəmiyyətə bənzəməlidir;
გ) Termotənzimləmə prosesinin müşahidəsi nəticəsində aydın oldu ki, pinqvinlərin komandası Antarktidanın iqliminə uyğunlaşmışdır;
დ) Pinqvinlərin komandasının sosial quruluşu cəmiyyətin quruluşu ilə eynidir.

3. Prevonun təcrübəsindən bu nəticəyə gələ bilərik:

ა) Pinqvinlərin çıxardığı müxtəlif səs siqnalları onlara bir-birini tapmağa kömək edir;
*ბ) Ünsiyyət prosesində pinqvinlər üçün həm vizual, həm də eşitmə stimulları həlledici rol oynayır;
გ) Pinqvinlərin məkanda oriyentasiya qabiliyyəti mahiyyətcə akustik hissiyyata əsaslanır;
დ) Pinqvinlər tərəfindən öz koloniyalarını axtarma prossesində səsli siqnallar vizualdan daha əhəmiyyətlidir.

4. Prevo pinqvinləri nə üçün halqa ilə işarələmişdi?
ა) "Həyat yoldaşlarının" bir-birindən nə üçün heç vaxt ayrılmadığını öyrənmək üçün.
ბ) Buzlaqdan ayrılan pinqvinlərin geri qayıtmasına kömək edən gizli üsulu öyrənmək üçün;
*გ) "Həyat yoldaşlarının" səs siqnallarının köməyi ilə biri-birini tapdığına əmin olmaq üçün;
დ) Pinqvin cütlüklərinin "boşanmasının" çox nadir hallarda baş verdiyinə əmin olmaq üçün.

5. II və III abzaslarda təsvir olunan araşdırmalar arasında hansı münasibət var?

*ა) Nəticələrinin oxşar olmasına baxmayaraq, bu araşdırmaların prosedurları bir-birindən fərqlənir.
ბ) Nəticələrinin bir-birindən fərqli olmasına baxmayaraq, bu araşdırmaların prosedurları bir-birinə oxşardır;
გ) Bu araşdırmaların məqsədləri də, prosedurları da oxşardır , lakin onların nəticələri bir-birindən fərqlənir;
დ) Bu araşdırmanın məqsədləri də, nəticələri də bir-birindən fərqlənir, lakin onların prosedurları oxşardır.

6. Aşağıda mətndə müzakirə olunan iki mövzu sadalanmışdır:
I – Pinqvinlərin əlaqəsində eşitmənin xüsusi əhəmiyyəti
II – Pinqvinlərin çoxalması və onunla əlaqəli bəzi aspektlər
Hər bir mövzu hansı abzasda müzakirə olunmuşdur, yəni cavab variantlarından hansı doğrudur?

ა) I birinci abzasda, II isə üçüncü abzasda müzakirə olunmuşdur;
ბ) I üçüncü abzasda, II isə ikinci abzasda müzakirə olunmuşdur;
გ) I birinci abzasda, II isə ikinci abzasda müzakirə olunmuşdur;
*დ) I ikinci abzasda, II isə üçüncü abzasda müzakirə olunmuşdur.

7. „Həyat yoldaşları“ və „boşanma“ sözləri nə üçün dırnaq içində yazılmışdır?

ა) Bu sözlər istehza ilə deyilib;
ბ) Bu sözlər tədqiqatçıların dediklərinin təkrarlanmasıdır;
გ) Bu sözlər mətni başa düşmək üçün əhəmiyyətlidir;
*დ) Bu sözlər məcazi mənada deyilib.

8. Aşağıda sadalanan başlıqlardan hansı mətnə uyğun gəlir?

ა) İctimai termotənzimləmə və imperator pinqvinləri;
*ბ) İmperator pinqvinlərinin səciyyəvi xüsusiyyətləri;
გ) İmperator pinqvinlərinin həyatında eşitmə və görmə problemləri;
დ) Şaxta şəraitində pinqvinlərin "tısbağa" məkəzində temperaturun tənzimlənməsi.

*Düzgün cavablar (*) işarəsi ilə işarələnmişdir.*